# Tarixə qızıl hərflərlə həkk olunan gün



*Artıq 4 ildir ki, böyük fəxarət hissi ilə qeyd etdiyimiz 8 Noyabr Zəfər Günümüz təkcə İkinci Qarabağ savaşındakı möhtəşəm qələbəmizin rəsmiləşdiyi, baş tacımız olan Şuşamızın işğaldan azad olunduğu, müqəddəs torpaqlarımızı işğal etmiş ləyaqətsiz düşmənlərimizin qarşımızda diz çökdüyü gün deyil, həm də hansı genin daşıyıcısı olduğumuzun təsdiqini tapdığı, sınmış qürurumuzun dirçəldiyi, milli mənliyimizin özümüzə qayıtdığı gündür.*

İllər keçdikcə müstəqil Azərbaycanımızın tarixinə qızıl hərflərlə həkk olunan bu günün möhtəşəmliyini daha dərindən hiss edəcəyik. 44 gün ərzində döyüş meydanında geriyə bir addım belə atmayan qəhrəman oğulların şücaəti indiki və gələcək nəsillər üçün əvəzolunmaz örnək və istinad mənbəyi olacaq. Bu oğullar 30 ilə yaxın müddətdə düşmən tapdağı altında qalan torpaqlarımızı qarış-qarış işğaldan azad etməklə tarixi və ilahi ədaləti bərpa etdilər. Bu oğullar 30 illik işğal dönəmində möhkəm qurulmuş və keçilməz hesab olunan sədləri keçərək bir ay ərzində döyüş meydanından on mindən çox əsgərinin fərarilik etdiyi "erməni ordusunun məğlubedilməzliyi" haqqında uydurma mifləri də darmadağın etdilər.

Döyüş meydanında ordumuzun qarşısında duruş gətirə bilməyərək fərarilik edən düşmən müharibə zonasından çox-çox uzaqlarda olan ərazilərə, o cümlədən Gəncəyə, Bərdəyə və Tərtərə qadağan olunmuş silahlardan istifadə etməklə atəş açaraq dinc əhalini hədəfə aldı və bununla da öz vəhşiliyini və barbarlığını növbəti dəfə nümayiş etdirdi. Daha çox xalqımızın döyüş əzmini sındırmağa hesablanmış bu vəhşiliyin də nəticə verməyəcəyini başa düşən erməni rəhbərləri, nəhayət ki, müqavimət göstərməyin mümkünsüzlüyünü başa düşərək faktiki kapitulyasiya aktı olan 10 noyabr Bəyannaməsini imzalamaq məcburiyyətində qaldılar. Lakin bəyannamə ilə üzərinə götürdüyü öhdəlikləri də yerinə yetirməkdən yayınmaqla növbəti dəfə erməni xislətinə sadiq qaldıqlarını nümayiş etdirdilər. Anlamadılar ki, BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsini, bütövlükdə beynəlxalq hüququn ayaq altına atılmış norma və prinsiplərini öz gücü hesabına icra edən Azərbaycan dövləti öz ərazisində baş verənlərə seyrçi qalmaq və dözmək fikrində deyil. Nəhayət, qəhrəman ordumuz uğurlu antiterror əməliyyatları həyata keçirməklə erməni terror qruplaşmalarını sıradan çıxardı, sonuncu 23 saatlıq əməliyyatla isə tam zərərsizləşdirdi. Bununla da ərazi bütövlüyümüz və suverenliyimiz bərpa olundu.

Əldə etdiyimiz möhtəşəm qələbə sayəsində biz yalnız torpaqlarımızı işğaldan azad etmədik, bu qələbə ilə həm də regionda bir çox güclərin məkrli planlarının üzərindən qara xətt çəkdik və bölgədə qüvvələr nisbətini öz xeyrimizə dəyişdik.

Lakin Azərbaycanın uğurlarını, regionun söz və güc sahibi olmasını həzm etməyən, mövcud durumdan narazı qalan bəzi güclər var ki, erməniləri revanşist addımlar atmağa təhrik etmək, bölgədə qarışıqlıq salmaq siyasəti yürütməkdədirlər. Ancaq mövcud reallıq budur ki, bu gün Azərbaycan bölgənin lider dövlətidir və ölkəmizin iştirakı olmadan heç bir layihə reallaşdırıla bilməz.

Bu möhtəşəm Zəfəri bizə yaşatdıqları üçün Azərbaycan Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyev başda olmaqla müzəffər ordumuza, qəhrəman əsgər və zabitlərimizə minnətdarlığımız sonsuza qədərdir. Bu yolda canından və qanından keçən şəhidlərimizə Uca Tanrıdan rəhmət diləyir, qazilərimizə sağlamlıq arzulayıram.

**Arzuxan ƏLİZADƏ,**
***Milli Məclisin deputatı,***
***Azərbaycan Milli İstiqlal Partiyasının sədri***

Azərbaycan.- 2024.- 7 noyabr (№ 246).- S.10.